**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

**Əlyazması hüququnda**

**MƏLAHƏT RAFİQ QIZI NURİYEVA**

# AİLƏDƏ UŞAĞIN SOSİAL İNKİŞAF ŞƏRAİTİ VƏ VALİDEYNLƏRLƏ PEDAQOJİ İŞİN XÜSUSİYYƏTLƏRİ

**5804.01-Цмуми педагоэика, педагоэиканын вя тящсилин тарихи**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbərlər:** **Hikmət Əbdül oğlu Əlizadə**
pedaqogika üzrə elmlər doktoru, professor
**Rəhimə Mahmud qızı Mahmudova**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Rəsmi opponentlər:**
**Sərdar Musa oğlu Quliyev**
pedaqogika üzrə elmlər doktoru, professor
**Mircəfər Mirməsi oğlu Həsənov**
pedaqogika üzrə fəlsəfə doktoru, professor

**Aparıcı təşkilat:** Sumqayıt Dövlət Universitetinin pedaqogika və psixologiya kafedrası

Müdafiə «24» dekabr 2013-cü ildə saat___da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD.02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

**Ünvan**: AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyov küç,, 34

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «_____» ____________2013-cü ildə göndərilmişdir.

**FD.02.061 Dissertasiya** **pedaqogika üzrə fəlsəfə**

**şurasının elmi katibi:** **doktoru, dos. K.R.Quliyeva**



## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Hazırda dünya inkişafının başlıca meyli kimi çox mürəkkəb, ziddiyyətli və birmənalı qiymətləndirilməyən qloballaşma prosesi ciddi dəyişikliklərə səbəb olur. Müxtəlif inkişaf səviyyəsində olan ölkələri sürətlə əhatə edən bu proses yetişməkdə olan gənc nəslin sosial inkişafı məsələlərini aktuallaşdırır. İctimai həyatda baş verən dəyişikliklər, yeniliklər zəminində müstəqillik yolu ilə inamla irəliləyən respublikamızda xalqımız üçün olduqca əhəmiyyətli olan taleyüklü məsələlər həll edilir. Bu proses, ümummilli liderimiz H.Ə.Əliyevin qeyd etdiyi kimi, «milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir».[1]

Qloballaşmanın təsiri ilə cəmiyyətin ilkin özəyi olan ailənin fəaliyyətində yeni məqamlar ortaya çıxır, uşaqların sosial inkişaf şəraiti əhəmiyyətli dərəcədə dəyişilir. Bu baxımdan qeyd etmək olar ki, ailədə uşaqların sosial inkişaf şəraiti iki mühüm amillə: a) ailədə sosial rolların yaş, cins, fərdi-psixoloji imkanlara görə düzgün müəyyənləşməsi; b) ailə üzvlərinin öz rollarına pozitiv münasibəti, bu rollarla bağlı olan normaların mənimsənilməsinə marağı və qabiliyyətləri ilə müəyyənləşir. Sosial normaların mənimsədilməsi ilə uşağın sosiallaşma maraqlarının üst-üstə düşməsi tərbiyənin effektivliyinin çox mühüm göstəricisidir. Ona görə də ailə həyatı ilə professional fəaliyyət arasında tarazlılığın yaradılması, valideynlərlə aparılan pedaqoji işin səviyyəsinin yüksəldilməsi bu prosesdə əsas, başlıca məqamdır. Valideynlərlə iş aparan pedaqoq sosial inkişaf şəraitinə təsir göstərən amillərin mahiyyətinə yaxından bələd olmalı, bu işin xüsusiyyətlərini bilməlidir. Ona görə də cəmiyyətdə, o cümlədən təhsildə demokratik dəyişikliklərin getdiyi bir vaxtda ailənin təhsil subyektləri ilə qarşılıqlı əlaqələrinin yeni formalarının tətbiqi zərurəti meydana çıxır. Bu, gənc nəslin sosial inkişafı üçün yaradılan pedaqoji mühitdə ahəngdarlığın, inkişafda məzmun eyniliyinin, ardıcıllığın, sistemliliyin, müasirliyin təmin olunması baxımından olduqca önəmlidir.

Hər bir ailə özünəməxsusdur, unikaldır. Onun spesifik etnopedaqoji və etnopsixoloji komponentləri ilə yanaşı, valideynlərin fərdi-

---

[1] Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti. Bakı: Bakı Universiteti nəşriyyatı, 2001, s.121.

psixoloji xüsusiyyətlərinin və şəxsi keyfiyyətlərinin bir-birindən fərqli olması real faktdır. Bundan əlavə, uşağa göstərilən təsir çox zaman pedaqoji əlaqələr kontekstində həyata keçirilir. Bütün bunları nəzərə aldıqda problemin əhəmiyyəti, əhatəliliyi, mürəkkəbliyi, həmçinin aktuallığı diqqəti cəlb edir. Belə düşünmək məntiqli olar ki, əgər söhbət uşağın sosial inkişafından gedirsə, onda həmin inkişaf onun baş verdiyi sahədə, ailədə və məktəbdə, daha doğrusu, onların qarşılıqlı əlaqə formasında, məzmununda axtarılmalıdır. Ona görə də ailədə uşağın sosial inkişaf şəraitini və bu kontekstdə valideynlərlə aparılan pedaqoji işin xüsusiyyətlərini xüsusi olaraq araşdırmaq elmi-nəzəri və praktik cəhətdən olduqca əhəmiyyətlidir.

**Problemin işlənmə səviyyəsi.** Problemin ayrı-ayrı aspektləri Azərbaycan klassiklərindən N.Gəncəvi, N.Tusi, M.Əvhədi, S.Ə. Şirvani, maarifçilər A.Bakıxanov, M.F.Axundov, M.R.Talıbov, M.T.Sidqi, S.M. Qənizadə, R.Əfəndiyev, Y.V.Çəmənzəminli, müasir pedaqogika və psixologiyanın nümayəndələri M.Muradxanov, Ə.S.Bayramov, Ə.Ə. Əlizadə, N.Ğ.Kazımov, Z.Ş.Qaralov, Ə.Ə. Ağayev, Ə.Ş.Həşimov, F.B Sadıqov, H.Ə.Əlizadə, F.A.Rüstəmov, Ə.X.Paşayev, A.N.Abbasov, R.H.Məmmədzadə və başqaları tərəfindən təhlil edilmişdir.

İ.Pestalossi, V.Ştern, L.S.Vıqotski və başqaları ilk dəfə olaraq bu problemin elmi aspektlərini öyrənmişlər. A.Adler insanda özünüinkişafın formalaşması şəraitini araşdırmış, L.I.Rubinşteyn, A.İ.Bojoviç, Y.L.Kolominski sosial inkişafda təlim-təbiyənin təsirini əsas amil kimi qiymətləndirmişlər. N.T.Salmina, İ.T.Tixonova, T.E. İovleva ailədə uşağın sosial münasibətlərin subyekti kimi təşəkkülünü əsaslandırmışlar. A.Q.Asmolov, İ.A.Volodarskaya, N.Q.Salmina, Q.V.Burmenskaya, O.A.Karabanova sosial inkişaf şəraitində valideynlərlə pedaqoji işin məzmununa təhsil standartlarının lahiyələşdirilməsi kontekstindən yanaşmışlar. O. T. Kalina və A. B. Xolmoqorova ailədə uşağa atanın təsiri problemini araşdırmışlar.

N.P.Anikeyeva, L.A.Vasilyeva, L.A.Baxturina, İ.İ.Kobıtina, O.A.Quleviç, A.A.Cerelevskaya, M.S.Kaqan, A.M.Etkind və başqaları sosial inkişaf prosesində uşaq üçün ən çətin məsələni yaşıdlarla qarşılıqlı anlaşmaya nail olmaqda görürlər. V.A.Ababkov, E.V. Kaydanovskaya, M.Perre, D.Şebi insanın artan tələbatları ilə bağlı olaraq həyat şəraitinin çətinləşməsi, ailənin qeyri-stabilliyi, valideynlik və professionallıq funksiyaları arasındakı uyğunsuzluqların çoxalması, eləcə də digər demoqrafik problemlərə aydınlıq gətirirlər. Ə.S.Bayramov,



L.İ.Rubinski, A.E.Solovyova bu sahədə müxtəlif yaş mərhələri üzrə uşaqların özünütərbiyəyə alışdırılmasını lazım bilirlər.

B.Boçkaryov, M.Qulko, A.Kuznetsov, S.Krasnova və başqaları müasir şəraitdə rol qarışıqlığı ilə üzləşən valideynlərə pedaqoji köməyin praktik həllini uşaqlar üçün yaradılmış əlavə təhsil müəssisələrində görürlər. Bununla yanaşı, K.N.Volkov, A.V. Kriçik, O.A. Konopkin, M.İ.Lukyanova və digər təşkilatçılar uşaqların sosial inkişaf şəraitinin yaxşılaşdırılmasında məktəbin qarşısında duran vəzifələri yerinə yetirmək üçün məktəb psixoloqlarının, habelə şagird, müəllim və valideyn üçlüyünün əlaqəli işinin təşkilinə xüsusi əhəmiyyət verirlər. T.Kornilova, E.Qriqorenko, S.Smirnov, V.Maqun, M.Mazniçenko, M.Mastyukova, A.Moskovkina bildirirlər ki, müəllim və valideynlər şagirdlərin daha çox fiziki cəhətdən möhkəm olmasına, təlimdən geri qalmamasına çalışır, lakin onun sosiallaşmasını izləməyi unudurlar.

Beləliklə, aparılan tədqiqatlarda şagird şəxsiyyətinin formalaşdırılmasına onun sosial inkişafının tərkib hissəsi kimi baxılır. Bu prosesə hansısa bir zaman kəsiyində təhlil vermək xüsusi elmi yanaşma tələb edir. Çünki bu inkişaf cəmiyyətin tarixi təkamülü, sosial-mədəni elementlər və bu zəmində valideynlərlə aparılan pedaqoji işin səmərəiliyi amilləri ilə sıx bağlıdır. Son illərdə həmin amillərin təzahürlərində, qarşılıqlı əlaqə və münasibətlərində ciddi araşdırma tələb edən yeni məqamlar, xüsusiyyətlər özünü göstərir. Zənnimcə, hazırkı tədqiqat bu ictimai tələbatın reallaşdırılması baxımından müəyyən addım hesab oluna bilər.

**Tədqiqatın obyekti** inkişafda olan uşaq, yeniyetmə və gəncin sosial inkişaf şəraitinin yaxşılaşdırılmasına yönəldilmiş, valideynlərlə müəllimlərin birgə fəaliyyətini özündə əks etdirən pedaqoji prosesdir.

**Tədqiqatın predmetini** ailədə uşaqın normal inkişafı üçün əlverişli sosial şərait yaratmaq məqsədilə müəllimlərin valideynlərlə apardığı pedaqoji işin yol, vasitə, metod və xüsusiyyətlərinin təhlili təşkil edir.

**Tədqiqatın məqsədi** müasir şəraitdə ailədə uşaqların sosial inkişaf şəraitini optimallaşdırmaq üçün valideynlərlə aparılan pedaqoji işin ən müasir, səmərəli, effektli yollarını müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulmuş məqsədə uyğun olaraq, işdə aşağıdakı tədqiqatçılıq vəzifələri reallaşdırılmışdır:

-mövcud ədəbiyyatda sosial inkişaf şəraiti anlayışının qoyuluşunu təhlil etmək;

-müasir şəraitdə ailə tərbiyəsinin sosial-pedaqoji problemlərini müəyyənləşdirmək;

-uşaqların sosial inkişaf şəraitinin və onların tərbiyəsinin real vəziyyətini öyrənmək;

-uşaqların normal sosial inkişafı ilə bağlı olaraq valideynlərlə aparılan pedaqoji işin xüsusiyyətlərini araşdırmaq;

-uşaqların asudə vaxtlarının səmərəli təşkili yollarını öyrənmək, bu sahədəki təjrübəni ümumiləşdirməyə çalışmaq;

-sosial inkişaf şəraitinin yaxşılaşdırılması istiqamətində valideynlərin sosial institutlarla yeni əlaqə formalarını müəyyənləşdirmək və bəzi təkliflər işləyib hazırlamaq.

**Tədqiqatın fərziyyəsi.** Pedaqoji işçilər valideynlərlə apardıqları işi milli- mənəvi dəyərlərə və müasir dövrün tələblərinə uyğunlaşdıraraq həyata keçirərlərsə, bu, uşaqların normal sosial şəraitdə inkişaf etməsinə kömək göstərər; valideynlərin uşağın inkişaf qanunauyğunluqları, yaşı, cinsi, fərdi xüsusiyyətləri haqqında məlumatlılığı artırılarsa, onlar inkişaf problemlərinə daha ciddi yanaşarlar. Təhsil sistemi cəmiyyətin inkişafına ciddi töhfə verdiyindən təhsil işçiləri tərəfindən valideynlərə göstərilən səmərəli pedaqoji təsir onlarda ailədə tərbiyə şəraitinin müasir tələblər əsasında qurulmasına maraq yaradar, valideyn-müəllim münasibətlərində, ailə və məktəb tərbiyəsində məzmun eyniliyinin gözlənilməsinə imkan verər, uşaqlarda müasir şəxsiyyətyönümlü təhsilin tələblərinə uyğun olaraq özünənəzarət, özünütərbiyə və özünüinkişaf formalaşar, əldə edilən biliklərin bacarıqlara çevrilməsinə stimul yaranar və nəticədə onlar real həyatda özlərini daha optimal tərzdə reallaşdıra bilərlər.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tətbiq olunan prinsiplərin, metodların və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları.** Tədqiqatda nəzəri təhlil, müşahidə, müsahibə, anket sorğusu, test və eksperiment metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi problemin qoyuluşundan, tədqiqatın məqsəd və vəzifələrindən irəli gəlir və konkret olaraq aşağıdakı müddəalarda öz əksini tapır:

-ailədə uşağın (yeniyetmənin, gəncin) sosial inkişaf şəraiti müxtəlif amillərin təsirinə məruz qalan kompleks pedaqoji problem kimi ayırd edilmiş, onun səciyyəvi xüsusiyyətləri müasir müstəqil inkişafımızın tələbləri prizmasından təhlil olunmuşdur;

-ailə ilə pedaqoji heyətin qarşılıqlı əlaqə və münasibətlərinin optimallaşdırılması, ailə tərbiyəsinin sosial-pedaqoji problemlərinin həlli istiqamətində real addımların atılması dinamik proses olduğundan burada toplanmış təcrübənin müntəzəm surətdə öyrənilməsinə və



təhlilinə ciddi ehtiyac vardır; ona görə də Bakı şəhərinin və Tovuz rayonunun konkret məktəblərinin nümunəsində həmin təcrübəni araşdıraraq müvafiq ümumiləşdirmələr aparılmasına, əsas meyllərin və kənaraçıxmaların müəyyənləşdirilməsinə səy göstərilmişdir;

-məktəb rəhbərliyinin, psixoloqlarının, müəllimlərinin ən müxtəlif məsələlər üzrə valideynlərlə apardıqları işin məzmunu, forma və vasitələri getdikcə zənginləşdiyindən konkret informasiyaya istinadən onların pedaqoji imkanları və perspektivləri nəzərdən keçirilmişdir;

-müəyyənləşdirilmişdir ki, uşaqların sosial inkişaf şəraitinə digər sosial institutlar da təsir göstərir və nəticədə ailədə spesifik rəqabət mühiti qərarlaşır; bunu nəzərə alaraq, ailədə pedaqoji heyətin apardığı işin nüfuzunu və səmərəliüyini yüksəltmək baxımından əhəmiyyətli olan müəyyən təklif və tövsiyələr işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqatın nəticələri pedaqogika elmini uşaqların sosial inişaf şəraitinin yaxşılaşdırılması istiqamətində müəllim, valideyn və psixoloqların əməkdaşlığı zəminində aparılan pedaqoji işin səciyyəvi xüsusiyyətləri ilə bağlı nəzəri fikirlərin xeyli dərəcədə zənginləşməsinə yardımçı ola bilər.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatda tətbiq olunan metodlardan, metodikadan ailə və məktəb təcrübəsində uşaqların sosial inkişaf şəraitini yaxşılaşdırmaq, bu sahədə çalışan psxioloq, müəllim və tərbiyəçilərin pedaqoji məharətini, valideynlərin ümummədəni səviyyəsini yüksəltmək məqsədilə istifadə etmək olar. Bundan əlavə, dissertasiyanın materialları ailə-məktəb münasibətlərini optimallaşdırmağa yönələn dövlət proqramlarının, sosial-pedaqoji yönümlü layihələrin və digər tədbirlərin həyata keçirilməsində müəyyən əhəmiyyət kəsb edir. Tədqiqatda öz əksini tapmış materiallardan pedaqogika, pedaqogika tarixi, psixologiya, sosiologiya, idarəetmənin əsasları və s. fənlərin tədrisində, dərsliklərin, dərs vəsaitlərinin, metodik tövsiyələrin, referatların, buraxılış işlərinin, magistr dissertasiyalarının hazırlanmasında istifadə oluna bilər.

**Müdafiəyə təqdim olunan müddəalar** aşağıdakılardan ibarətdir:

1. «Uşağın sosial inkişaf şəraiti» anlayışı onun ailə həyatını, ailədənkənar vaxtının əsas hissəsini keçirdiyi məktəbin pedaqoji mühitini, habelə müxtəlif qruplardakı fəaliyyət tərzini ehtiva edir.

2. Valideynlərin təhsil subyektləri ilə səmərəli əlaqələri onların sosial inkişaf haqqındakı bilik, təsəvvür və pedaqoji təcrubəsinə pozitiv təsir göstərir.

3. Uşağın sosial inkişafı onun obyektiv sosial qiymətləndirilməsindən əhəmiyyətli dərəcədə asılı olduğundan həm ailədəki, həm də məktəbdəki qiymətləndirmələr bir-birinə qarşılıqlı surətdə təsir edir.

4. Valideynlərlə aparılan pedaqoji işdə ailənin etnik tərkibinin, sosial vəziyyətinin və mədəni inkişaf səviyyəsinin nəzərə alınması reallaşdırılan pedaqoji işin müvafiq yollarını müəyyən etməyə imkan verir.

5. Valideynlərlə aparılan pedaqoji işin təşkilinə məktəb psixoloqlarının cəlb olunması nəticələrin səmərəliliyini artırır.

6. Uşaqların sosial inikşaf şəraitinin yaxşılaşdırılması istiqamətində milli adət-ənənələrin nəzərə alınması ailə və məktəbin real əlaqələrinin genişlənməsinə kömək edir.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin Pedaqogika kafedrasında yerinə yetirilmiş, müzakirə olunmuş və müdafiəyə məsləhət görülmüşdür. İşin əsas müddəaları və nəticələri müəllifin dərc etdirdiyi 11 elmi məqalədə (o cümlədən xaricdə – Rusiyada və Türkiyədə çap olunmuş 3 məqalədə), habelə elmi-praktik konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, yeddi yarımfəsli əhatə edən iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

«**Giriş**»də mövzunun aktuallığı əsaslandırılır, onun işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, fərziyyəsi, metodoloji əsasları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti müəyyən edilir, müdafiəyə təqdim olunmuş müddəalar, habelə işin aprobasiyası və strukturu açıqlanır.

Dissertasiyanın **birinci fəsli «Problemin nəzəri-metodoloji məsələləri»** adlanır və dörd yarımfəsli ehtiva edir. Bu fəslin **«Sosial inkişaf şəraiti pedaqoji problem kimi»** adlanan **ilk yarımfəslində** sosial inkişaf və sosial inkişaf şəraiti anlayışları nəzərdən keçirilir, sosial inkişaf şəraiti pedaqoji problem kimi ayırd edilir və onun səciyyəvi cəhətləri araşdırılır. Qeyd olunur ki, sosial inkişaf fərd tərəfindən sosial mühitin normalarının mənimsənilməsi yolu ilə onun inkişafı və özünüinkişafı, tərbiyəsi və özünütərbiyəsidir. Sosial inkişaf öz-özünə deyil, sosial şəraitdə, başqa insanlarla əlaqə və münasibətlərdə, onlarla birgə fəaliyyət və ünsiyyət prosesində baş verir. Sosial inkişaf şəraiti dedikdə isə insanın yaşadığı ailənin, cəmiyyətin malik olduğu iqtisadi, sosial, mədəni, mənəvi-psixoloji imkanlar nəzərdə tutulur. Sosial inkişafı şərtləndirən amillər içərisində sosial şərait, pedaqoji mühit amilləri olduqca əhəmiyyətlidir.



Ailədə qərarlaşan sosial şərait uşağın tələbatlarının təmin olunmasını, mahiyyət etibarilə onun inkişafını şərtləndirir. Ona görə də normal sosial şərait ailədə və cəmiyyətdə sosial inkişafın vacib amili kimi qəbul olunur, yəni uşağın tərbiyəsi, təlimi üçün əlverişli, rahat mənzil şəraiti, avadanlıq, vəsait, mikro- və makromühitin olması zəruridir. Bu sosial şərait uşağın maraq və meyllərini ödəmək üçün yetərli dərəcədə təsiredici imkanlara malik olmalıdır. Belə olduqda sosial şərait inkişafa dinamik təsir göstərir. Başqa sözlə desək, yaradılmış sosial inkişaf şəraitində tələbatların ardıcıl və sistemli qaydada ödənilməsi təmin edildikdə uşaqda yeni fəaliyyətə maraq oyadaraq, onu inkişafa yönəldir.

Yarımfəsildə uşağın inkişafı üçün münasib şərait yaradılması və bu əsasda onun sosiallaşması məsələsinin xalqımızın zəngin ədəbi-bədii nümunələrində, habelə klassik və müasir pedaqoji fikirdə necə qoyulması müfəssəl təhlil olunur, müəyyən ümumiləşdirmələr aparılır. Müəllif belə bir qənaətə şərik olduğunu bildirir ki, «tərbiyə üçün yaradılan müvafiq şərait lazım olan keyfiyyətləri avtomatik olaraq uşaqlara aşılamır. Şərait amillərinin tərbiyə vasitələrinə çevrilməsi üçün böyük təşkilatçılıq işi tələb olunur».[1]

Bir cəhəti də unutmaq olmaz ki, uşaq mühitin, şəraitin təsirlərinə seçimlə yanaşır. Həmin seçim uşağın özünüreallaşdırası prosesində yaranan tələbat, maraq, arzu və meyllərin məzmunundan asılı olaraq dəyişə bilir.

İşdə ailədə təşəkkül tapmış sosial inkişaf şəraitində uşağın sosiallaşmasına xüsusi xüsusi yer ayrılır, müxtəlif tədqiqatçıların mövqeləri müqayisə edilir. Qeyd olunur ki, sosial inkişaf şəraiti psixoloji yaşın dəyişikliklərinə uyğunlaşdırılmalı, tərbiyənin pedaqoji məzmunu yaş qanunauyğunduqlarına görə yeniləşməlidir, əks halda tərbiyənin nəticələrinin səmərəliliyi azala bilər. Normal sosial inkişaf şəraitində uşağın özünüdərk, özünüreallaşdırma proseslərinin uğurlu olması üçün lazım olan daxili, təbii gücün toplanması təmin edilməlidir ki, nəticədə onun daxili

[1] Kazımov N.M. Tərbiyənin elmi-pedaqoji əsasları. Bakı: Maarif, 1993, s.135.

tələbatları ilə sosial şəraitin tələbləri arasında balans yaradılsın və səmərəli məhsuldar fəaliyyəti həyata keçirilsin.

Dissertasiyanın **«Ailə tərbiyəsinin sosial-pedaqoji problemləri»** adlanan **ikinci yarımfəslində** ailədə əlverişli sosial inkişaf şəraitinin yaradılması şərtləri və ailə tərbiyəsinin müasir sosial-pedaqoji problemləri nəzərdən keçirilir. Qeyd olunur ki, ailə tərbiyəsinin səmərəliliyi ailə üzvlərinin şəxsi keyfiyyətləri, məişət birliyi, mənəvi cavabdehlik və qarşılıqlı kömək hissinin olması, sərvət meylləri, dünyagörüşü, mədəni səviyyəsi və tərbiyəsi ilə şərtlənir. Bu amillər fərqli təsir imkanlarına malik olsa da, son nəticədə ailənin mənəvi-psixoloji iqlimini yaradır. Ona görə də valideynlərin pedaqoji mədəniyyəti sağlam mənəvi-psixoloji iqlimin qərarlaşmasında və uşaqların inkişafında mühüm məsələ kimi vurğulanır.

Əvvəlki dövrlərlə müqayisədə müasir şəraitdə uşaqların tərbiyə və təhsili ilə bağlı valideynlərin məsuliyyəti artmışdır. Lakin bununla yanaşı, təcrübə göstərir ki, ailə tərbiyəsi istiqamətində validenlərin çətinlikləri xeyli dərəcədə çoxalmışdır. Bu, ilk növbədə, müəyyən demoqrafik problemlər nəticəsində (valideynlərin hər ikisinin istehsalda çalışması, ailələrin nuklearlaşması, azuşaqlı ailələrin çoxalması, miqrasiya, boşanma, təkrar nikah və s.) uşaq üzərində sosial nəzarətin zəifləməsi, sosial inkişaf şəratinin yaxşılaşdırılması istiqamətində valideynlərin üzləşdikləri problemlərlə bağlıdır. Aparılan tədqiqatlardan məlum olur ki, belə hallarda valideynlər ailədə yaranmış yeni demoqrafik situasiyada uşağın tərbiyəsi işini düzgün təşkil etməkdə çətinlik çəkirlər. Başqa sözlə, qərarlaşmış yeni demoqrafik situasiyada ailədə uşağın sosial inkişafı üçün münasib şərait yaratmaqda və onun tərbiyəsini həyata keçirməkdə, pedaqoji terminlərlə desək, valideynlərin «pedaqoji təcrübəsi» kifayət etmir. Bu istiqamətdə valideynlərin pedaqoji mədəniyyətinin artırılması qayğısına qalmaq müasir məktəbin mühüm vəzifələrindən birinə çevrilmişdir. Uşaqların sosial inkişaf şəraitinin yaxşılaşdırılmasında, məktəbin qarşısında duran vəzifələrin uğurla yerinə yetirilməsində həm məktəb psixoloqlarının, həm də şagird, müəllim və valideyn üçlüyünün əlaqəli işinin təşkili xüsusi əhəmiyyət kəsb edir.

Yarımfəsildə ailə tərbiyəsinin sosial-pedaqoji problemləri qismində ailədaxili qarşılıqlı münasibətlərin vəziyyəti, ailənin mənəvi-psixoloji mühiti, valideynlərin öz rollarına məsuliyyətli münasibəti, övladlarının cins, yaş və s. fərqlərini, fərdi-psixoloji xüsusiyyətlərini nəzərə alması, uşaqların ətraf aləmə münasibətlərinin məzmunu və xarakteri, onların davranışında, sosial-psixoloji inkişafında təzahür



edən konkret çətinliklər və s. nəzərdən keçirilir, həmin məsələlərə müxtəlif tədqiqatların mövqeləri müqayisəli şəkildə təqdim olunur, onlara müəllif münasibəti bildirilir.

Birinci fəslin **«Sosial inkişaf şəraiti baxımından valideynlərlə aparılan işin etnopedaqoji aspektləri»** adlanan **üçüncü yarımfəslində** ailədə milli-mənəvi dəyərlər ruhunda aparılan tərbiyənin xüsusiyyətləri araşdırılır. Qeyd olunur ki, hər bir xalqın öz ailə ənənələri, ailə münasibətləri sistemi mövcuddur. Ailə ənənələri insanların tarixən əldə etdikləri, onların şüurunda, stereotip və yönümlərində qorunub saxlanan sosial təcrübənin yeni nəslə ötürülməsi, aktuallaşması və reallaşması, eləcə də indinin keçmişlə spesifik əlaqələri sistemidir. Bu ənənələrin pozulması adətən ailə münasibətlərində, xüsusən də valideyn-övlad münasibətlərində konfliktlərin yaranmasına gətirib çıxarır.

Aparılmış etnopsixoloji və etnopedaqoji tədqiqtlar göstərilir ki, təkcə anatomik növdə deyil, mədəni-psixoloji növdə də əsas əlamətlər hər yeni nəsildə üzə çıxmağa can atır.[1] Ona görə də, mütəxəssislərin fikrincə, formalaşmaqda olan uşağın şəxsiyyəti milli adət-ənənələrin təsiri ilə möhkəmləndirilməlidir. «Kitabi-Dədə Qorqud» dastanlarının etnik-psixoloji xüsusiyyətlərini araşdıran prof. Ə.S.Bayramov haqlı olaraq, milli xarakteri sosial-bioloji fenomen kimi dəyərləndirərək qeyd edir ki, o, sözün geniş mənasında genetik təbii imkanların, tərbiyənin və mədəniyyətin irsən qəbul edilməsi ilə şərtlənir».[2]

Lakin apardığımız tədqiqatlardan aydın olur ki, bir sıra ailələrdə uşaqların tərbiyəsi işində etnopedaqoji məqamlar zəifləmişdir. Müasir şəraitdə – qlobal təsirlərin gücləndiyi, cəmiyyətdə ənənələrin sürətlə dəyişdiyi bir dövrdə bu məsələ xüsusi diqqət tələb edir. Deyilən fikirləri əsas tutaraq, ailədə sosial inkişaf şəraitinin yaxşılaşdırılması istiqamətində valideynlərlə aparılan pedaqoji işin etnopedaqoji aspektinin mahiyyətinə aşağıdakı məsələlərin daxil edilməsini məqsədəuyğun hesab etdik: ailə tərbiyəsində uşaqların özünü azərbaycanlı kimi dərk etməsi, onlarda özünün söykökünə görə milli qürur, milli iftixar, milli ləyaqət hissinin formalaşdırılması; valideynin və müəllimin şəxsi nümunəsində həmin məqamların təzahür etməsi; uşağın maddi tələbatları ilə yanaşı milli-mənəvi tələbatlarının daha dolğun ödənilməsi; ailə münasibətlərinin və müəllim-şagird münasibətlərinin

---

[1] Психологический журнал. 1993, №2, с.17-25.

[2] Байрамов Я.С. «Китаби-Дядя Горгуд» дастанларында етник-психоложи хцсусиййятлярин иникасы. Бакы: Нурлан, 2000, с.25.

müasirlik və milli adət-ənənələrin vəhdəti əsasında tənzimlənməsi; ailələrin özünəməxsus xüsusiyyətlərinin, etnik mənşəyinin, ənənələrinin nəzərə alınması.

Birinci fəslin **«Ailədə pedaqoji mühitin öyrənilməsi təcrübəsi»** adlanan **dördüncü yarımfəslində** uşağın sosial inkişafında qərarlaşmış ənənələrin, mövcud təcrübənin roluna önəm verilir. Bu halda ailənin pedaqoji mühiti dünyada və respublikamizda təhsil və tərbiyə sahəsində aparılan islahatlar kontekstində nəzərdən keçirilir. Qeyd olunur ki, YUNESKO ekspertləri tərəfindən işlənib hazırlanmış «Birlikdə yaşamağı öyrən» adlı qlobal xarakterli konsepsiyanın müddəaları bu baxımdan çox əhəmiyyətlidir. Burada təlim-tərbiyənin məzmununun qloballaşma prosesinin tələblərinə uyğunlaşdırılması, miqrasiya və mədəni müxtəliflik amillərinin nəzərə alınması, tərbiyənin vacib məqsədləri sırasında şəxsiyyətin fəal vətəndaşlığı və sülhə hazırlanması məsələləri mühüm yer tutur.[1]

Araşdırmalar belə bir qənaət üçün əsas verir ki, böyüməkdə olan nəslin tərbiyəsi ciddi dəyişikliklərə məruz qalan, inkişafda olan sosial mühitin tələbidir. Bu tələbin reallaşdırılması müəyyən münaqişələrə (həm insanların davranış və rəftarında, həm də emosional və koqnitiv sferalarda) yol açır. Bu münaqişələri araqdırmaq və ailədə pedaqoji mühitin məzmununu öyrənmək məqsədilə xüsusi testlərdən istifadə etməyi lazım bildik.

Ailə münasibətlərinin tədqiqində PARİ (pariental attidude research instrument) testindən istifadə olunmuşdur. Test bankına daxil olan suallar ailədaxili problemləri, burada qərarlaşmış pedaqoji-psixoloji mühiti və münasibətləri, münaqişələri, ailə tərbiyəsinin vəziyyətini aydınlaşdırmağa imkan verir.[2] Test blankları fərdi qaydada hər bir valideynə paylanır. Valideynlər (onların sayı 60 nəfərdir) cavabları 4 məzmunda (tam razıyam; əsasən razıyam; qismən razıyam; razı deyiləm) xüsusi işarələrlə göstərirlər.

Alınmış nəticələrdən aydın olur ki, respublikamızda ailə təcrübəsi bir sıra etnopedaqoji xüsusiyyətlərlə səciyyələnir: ailədə uşağa kifayət qədər söz azadlığı verilmir, bu sahədə milli adət-ənənələrdən yaranan sterereotip yanaşmalar, məhdudiyyətlər hələ də qorunub saxlanılır; ailədə uşaqlara, kiçik istisnalar nəzərə alınmazsa, hədsiz qayğı göstərilir;

[1] Филонов Г.Н. Свобода личности и воспитание// Педагогика, 2005, №9, с.25-33.

[2] Бах: Ахмеджанов З.Р. Психологические тесты. М.: Лист, 1996.



yaşından asılı olmayaraq, uşaqlar əsasən ailədən asılıdırlar; ailə münaqişələrinin faiz dərəcəsi aşağıdır - bu, uşaqların psixi sağlamlığının qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir; valideynlər özlərinin yüksək avtoritetini qoruyub saxlayırlar; ailədə övladlarla eyni hüquqlu münasibətlərin olması fikri qəbul olunmur, yeniyetmə yaşında belə valideynlər onların hələ kifayət qədər böyümədikləri qənaətindədirlər; ailədə uşağın fəallaşdırılmasına təşəbbüs göstərilir, lakin valideynlər bunun həlli yollarını düzgün müəyyənləşdirməkdə çətinlik çəkirlər; onlara qayğı məqsədilə bir sıra ailələrdə uşağın daxili aləminə hədsiz müdaxilə edilir; valideynlərlə uşaqlar arasında bərabər münasibətlərin mümkünlüyü fikri yetkinlik yaşında və yalnız bir sıra məsələlərin həlli üzrə qəbul olunur; uşağın inkişafını sürətləndirmək cəhdləri daha çox nəzarət məqsədilə həyata keçirilir.

Uşaqların sosial inkişaf şəraitinin yaxşılaşdırılması sahəsində valideynlərlə aparılan pedaqoji işdə kimlərin daha çox məsuliyyət daşımasınını da anket sorğusu ilə öyrənmişik. Azərbaycan Müəllimlər İnstitutunda 17 rayondan ixtisasartırma kursuna cəlb olunmuş 60 nəfər məktəb rəhbərləri, təhsil meneceri və müəllimlərlə keçirilən sorğu nəticəsində məlum olmuşdur ki, məktəbdə müxtəlif kateqoriyalar üzrə problemə münasibət dəyişir. Məsələn, məktəb rəhbərləri bu sahədə özlərini öndə görsələr də, sorğunun yekunlarına görə, onlar dördüncü sırada qərarlaşıblar. «Sizin fikrinizcə, hansı işçilər valideynlərlə pedaqoji yönümdə daha çox iş aparırlar?» sualına verilmiş cavablar aşağıdakı kimi olmuşdur.

Cədvəl 1.

Məktəbdə valideynlərlə daha çox pedaqoji yönümdə
iş aparan mütəxəssislər

| S.№ | Məktəb işçiləri | Mütəxəssislərin qiymətləndirmələri | | | |
|---|---|---|---|---|---|
| | | məktəb direktorlarının qiymətlən. | təhsil menecerlərinin qiymətlən. | müəllimlərin qiymətlən. | Cəmi |
| 1. | Sinif rəhbərləri | 30% | 20% | 22% | 72% |
| 2. | Məktəb psixoloqları | 20% | 40% | 25% | 85% |
| 3. | Məktəb rəhbərləri | 20 % | 10% | 18% | 48% |
| 4. | İbtidai sinif müəllimləri | 20% | 20 % | 25% | 65% |
| 5. | Fənn müəllimləri | 8% | 7% | 9% | 24% |
| 6. | Uşaq birliyi rəhbərləri | 2% | 3% | 1% | 6% |

Göründüyü kimi, sorğuda iştirak edənlərin 85 %-i məktəb psixoloqlarının, 72 %-i sinif rəhbərlərinin, 65 %-i ibtidai sinif müəllimlərinin, 48 %-i məktəb rəhbərlərinin, 24 %-i fənn müəllimlərinin 6%-i isə uşaq birliyi rəhbərlərinin imkanlarını üstün qiymətləndirmişlər.

Aparılın sorğuların nəticəsi kimi qeyd edə bilərik ki, valideynlərlə aparılan pedaqoji işin xüsusiyyətlərində uşaqların şəxsiyyətinin formalaşdırılması problemi daha aktual məna kəsb edir və valideynlərə kömək istiqamətində məktəb psixoloqlarının rolu getdikcə artmaqdadır. Onlar artıq məktəblərdə valideynlərə daha effektli təsir göstərə bilən kadrlar kimi qiymətləndirilirlər.

Dissertasiyanın **«Ailədə sosial inkişaf şəraitinin yaxşılaşdırılması baxımından valideynlərlə aparılan pedaqoji işin əsas istiqamətləri»** adlanan **ikinci fəsli** üç yarımfəsli əhatə edir. Bu fəslin **«Məktəb psixoloqlarının valideynlərlə apardığı işin xüsusiyyətləri»** adlı **birinci yarımfəslində** şagirdlərin sosial inkişafında psixoloq və valideynlərin əlaqəli işinin rolu nəzərdən keçirilir. İlk növbədə şagirdlərin sosial inkişaf şəraitinin real vəziyyəti ilə şərtlənən gərginlik, münaqişə, deformasiya təzahürləri yığcam təhlil olunur və valideynlərlə iş aparan mütəxəssislərin – psixoloqların fəaliyyətinə diqqət cəlb edilir. Bu məqsədlə Bakı şəhərinin Səbail, Nəsimi, Xətai, Nizami və Binəqədi rayonlarının ümumtəhsil məktəblərində işləyən 30 praktik psixoloqla anket-sorğu keçirilmişdir. Psixoloqların 83 %- nin fikrincə, məktəbdə və ailədə qurulan təlim-tərbiyə prosesində şagirdlərin məhəbbət, müdafiə və təhlükəsizlik, ünsiyyət, özünütəsdiq və özünüreallaşdırma tələbatının ödənilməsi prioritet olmalıdır. 72 % psixoloq hesab edir ki, hazırda ailədə və məktəbdə sosial inkişaf şəraitinin pozulmasına səbəb olan amillər sırasında təbii ləngimələr, uşağın münaqişəli ailədə böyüməsi üzündən aqressiv davranışa meyl göstərməsi, məktəbdə qiymətləndirmələrdə obyektivliyin gözlənilməməsi səbəbindən təlimə maraqsızlıq, təlim motivlərinin zəifləməsi, ailənin sosial, mənəvi problemləri ilk yerlərdə durur. Bu problemlərin həlli sahəsində məktəb psixoloqları eyni mövqedən çıxış edirlər: onlar şagird, müəllim və valideynlərlə maarifləndirmə, profilaktika, diaqnostika, korrekisya və konsultasiya işləri apardıqlarını bildirirlər. Məktəb psixoloqlarının fikrincə, həmin işlərin həyata keçirilməsində onların məktəb müəllimləri və sinif rəhbərləri ilə birgə pedaqoji işin səmərəsinin artırılması baxımından valideynlərlə əməkdaşlıq etməsi olduqca vacibdir.



Yarımfəsildə məktəb psixoloqlarının valideynlərlə iş apararkən üzləşdikləri real problemlər və onların həllinə kömək edən yollar, vasitələr də təhlil olunur.

İkinci fəslin **«Müasir şəraitdə məktəblilərin sosial inkişaf şəraitinin optimallaşdırılması sahəsində valideynlərlə aparılan pedaqoji işin xüsusiyyətləri»** adlı **ikinci yarımfəslində** konkret sosial-pedaqoji tədqiqat materialları əsasında şagirdlər üçün daha optimal sosial inkişaf şəraiti təmin olunmasına istiqamətlənmiş pedaqoji fəaliyyətin xüsusiyyətləri araşdırılır. Qeyd olunur ki, valideynin pedaqoji savadının artırılması istiqamətində məktəblə ailənin əlaqəsi problemi həmişə pedaqoqların, psixoloqların diqqət mərkəzində olmuşdur. Ünsiyyət və optimal münasibətlər sistemi şagirdin sosial inkişaf şəraiti baxımından çox mühüm amildir, lakin yeganə amil deyildir. Burada digər amillər də nəzərə alınmalıdır: uşağa özünün sosial rollarının vaxtında və düzgün öyrədilməsi, ona əməl olunmasına nəzarət; ailədə uşağın sosial statusunun ona başa salınması və onun tərəfindən öz məsuliyyətinin dərk edilməsi; uşağa öz fəaliyyətini fiziki və sosial-psixoloji imkanlarına, keyfiyyətlərinə görə düzgün tənzimləməyin, obyektiv qiymətləndirməyin, özünə və ailəsinə dəyər verməyin öyrədilməsi və s. bu qəbildəndir. Lakin təəssüf hissi ilə qeyd edilməlidir ki, valideynlər heç də həmişə bu məsələləri yetərincə həll edə bilmirlər. Pedaqoji ədəbiyyatda qeyd edildiyi kimi, bunun əsas səbəblərindən biri valideynilərin pedaqoji məlumatlılığının lazımi səviyyədə olmamasıdır.

Valideynin pedaqoji səviyyəsinin yüksəldilməsi istiqamətində Bakı şəhəri Nərimanov rayonundakı 258 saylı orta məktəbin VIII «b» sinfində, Binəqədi rayonundakı 100 saylı orta məktəbin IX «b» sinfində və Tovuz rayonundakı 1 saylı orta məktəbin VIII «b» sinfində müəyyənedici eksperiment həyata keçirilmişdir. Eksperimentə 520 nəfər: 174 müəllim, 173 şagird, 173 valideyn cəlb olunmuşdur. Eksperimentin məqsədi ailədə uşaq üçün normal sosial inkişaf şəraitinin yaradılması baxımından məktəbin valideynlərlə yeni əlaqə formalarının səmərəliliyini müəyyənləşdirmək olmuşdur. Bu istiqamətdə məktəblərdə apardığımız ilkin araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, müasir məktəbdə müəllimlərin valideynlərlə pedaqoji əlaqələri bütövlükdə zəifdir. Bunun əsas səbəbi müəllimlərin öz peşə fəaliyyətinə məhdud yanaşmaları, yalnız öz fənnini tədris etməklə kifayətlənmələridir. Onlar valideynlərlə pedaqoji işin təşkili funksiyasını əsasən sinif rəhbərlərinə aid edirlər.

Eksperimentin keyfiyyətinin artırılması və obyektivliyin təmin edilməsi məqsədi ilə məktəbin təcrübəli müəllimlərindən ibarət olan işçi

(ekspert) qrupları yaratdıq. Eksperimentin əvvəlindən sonuna qədər həm yeniliklərin tətbiqi, həm də qiymətləndirmə zamanı işçi (ekspert) qruplarının fikirləri əsas kimi qəbul edilir, onlarla daim müzakirələr həyata keçirilirdi. İşçi (ekspert) qrupunun üzvləri ilə birlikdə aparılan ilk müzakirə tədqiqata cəlb edilmiş şagirdlərin sosial inkişaf baxımından qruplara bölünməsi ilə əlaqədar olmuşdur. Müzakirələr nəticəsində şagirdlərin üç qrupa bölünməsi daha məqsədəuyğun hesab edildi: yüksək, orta, aşağı. İşçi qrupu tərəfindən meyarlar ayırd edildi və həmin meyarlar əsasında hər bir məktəbdə eksperimental və kontrol siniflərdə şagirdlər qruplara bölündü. Yüksək sosial inkişaf səviyyəsinə daha çox malik olan siniflər kontrol sinif kimi götürülmüşdür. Məsələn, 1 saylı məktəbdə əgər həm eksperimental, həm də kontrol sinifdə yüksək səviyyə qrupuna 3 şagird daxil olmuşdursa, aşağı səviyyə qrupuna eksperimental sinifdə 9, kontrol sinifdə 7 şagird daxil olmuşdur. 2 saylı məktəbdə I qrupa daxil olan şagirdlərin sayı eksperimental sinifdə 4, kontrol sinifdə 5, III qrupda isə hər iki sinifdən 6 şagird olmuşdur. 3 saylı məktəbdə eksperimental qrupda həm I, həm də III qrupa daxil olan şagirdlərin sayı bərabər (6 nəfər) olmuşdur.

Bundan əlavə, işçi (ekspert) qruplarının üzvləri ilə siniflərin hər bir şagirdinin demoqrafik xarakteristikası da müzakirə edilmişdir. Bu olduqca vacib məqam idi, çünki aparılan tədqiqatlar göstərdi ki, ailənin sosial inkişaf şəraitinin qərarlaşmasında demoqrafik amillər müəyyənedici təsirə malikdir. Bu göstəricilər aşağıdakı cədvəldə öz əksini tapmışdır.

Cədvəl 2.1

Eksperimental və kontrol siniflərin demoqrafik xarakteristikası

| Sinif | Şagird. sayı | Ailənin tipi | | Ailədə uşağın sayı-19 | | | Miqrasiya etmiş | Uşağın cinsi | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | tam | natam. | çox | Orta | az | | oğlan | qız | qarış. |
| 1 eks. | 25 | 19 | 6 | 1 | 5 | 19 | 6 | 3 | 2 | 20 |
| 1 kont. | 23 | 18 | 5 | 1 | 4 | 18 | 5 | 3 | 3 | 17 |
| 2 eks. | 26 | 20 | 6 | - | 9 | 17 | 7 | 4 | 2 | 20 |
| 2 kont. | 24 | 19 | 5 | - | 8 | 16 | 6 | 3 | 3 | 18 |
| 3 eks. | 27 | 21 | 6 | 2 | 11 | 14 | 2 | 4 | 2 | 21 |
| 3 kont. | 26 | 19 | 7 | 1 | 12 | 13 | 2 | 3 | 4 | 19 |
| Cəmi | 151 | 116 | 35 | 5 | 49 | 97 | 28 | 20 | 16 | 115 |

Tədqiqatın növbəti mərhələsində pedaqoji iş aparmaq üçün valideynləri pedaqoji məlumatlılıq səviyyəsinə görə üç qrupa bölmək qərara alındı: yüksək, orta, aşağı. Bu əsasda şagirdlərin sosial inkişaf



səviyyəsinin qrupları ilə valideynlərin pedaqoji savadılılığı arasında əlaqənin müəyyənləşdirilməsi təmin edilmişdir (bax: Cədvəl 2.2.)

Cədvəl 2.2

Şagirdlərin sosial inkişaf səviyyəsi ilə valideynlərin pedaqoji savad səviyyəsi arasında əlaqə

| Valideyn və şagirdlərin sayı | | Yüksək səviyyə | | Orta səviyyə | | Aşağı səviyyə | |
|---|---|---|---|---|---|---|---|
| | | Şag. | Val. | Şag. | Val. | Şag. | Val. |
| 1 eks. | 25 | 3 | 2 | 13 | 12 | 9 | 11 |
| 1 kont. | 23 | 3 | 2 | 13 | 12 | 7 | 9 |
| 2 eks. | 26 | 4 | 3 | 16 | 13 | 6 | 10 |
| 2 kont. | 24 | 5 | 3 | 13 | 14 | 6 | 7 |
| 3 eks. | 27 | 6 | 4 | 15 | 13 | 6 | 10 |
| 3 kont. | 26 | 6 | 4 | 14 | 13 | 6 | 9 |

Cədvəldən göründüyü kimi, şagirdlərin sosial inkişaf səviyyəsi valideynin pedaqoji savad səviyyəsini qabaqlayır. Bütün qruplar üzrə bu, demək olar ki, ümumi meyldir. Bunu onunla əlaqələndirə bilərik ki, uşağın sosial inkişafı təkcə ailə ilə bağlı deyildir: o, gün ərzində məktəbdə, qohum ailələrində, həyatdə dostları arasında olur, nəticədə göstərilən amillər şagirdin sosial inkişafında mühüm rol oynayır.

Valideynlərlə pedaqoji işə başlarkən işçi (ekspert) qrupları ilə müzakirə nəticəsində belə qərara alındı ki, valideynlərlə pedaqoji iş pedaqoji savad meyarı əsasında bölünmüş qruplardan əlavə, daha kiçik qruplarla aparılsın. Bunun üçün ilk növbədə kiçik qrupların yaradılması meyarlarını müəyyənləşdirmək lazım idi. Ekspert qrupunun üzvləri və sinif rəhbərləri ilə bu məsələ müzakirə edildi. Müzakirə zamanı ailədə uşağın sayına əsasən kiçik qrupların yaradılması fikrinə üstünlük verildi. Bunu işçi (ekspert) qrupları ailədə uşağın sosial inkişaf şəraitinin yaranmasında uşağın sayının mühüm rol oynadığı fikri ilə əlaqələndirdilər. Məlum oldu ki, 78 valideynin üçü çoxuşaqlı, 25-i orta uşaqlı, (9-u dörduşaqlı, 16-sı üçuşaqlı), 50-si azuşaqlı ailə başçısıdır. Beləliklə, ilkin araşdırmalar zamanı aşağı pedaqoji səviyyəli valideynlər beş qrupa bölünərək, onların hər biri ilə ayrılıqda pedaqoji iş aparıldı.

Beş və dörd uşaqlı ailələrdə valideynlərlə pedaqoji iş aparmaq o qədər çətin olmadı. Bu onunla əlaqədar idi ki, bu qruplara daxil olan valideynlərin sayı (müvafiq olaraq 3 və 9 nəfər) çox deyildi. Onlarla pedaqoji iş apararkən, ilk növbədə ailədəki uşaq kollektivinin təşkili problemlərinə diqqəti cəlb etdik. Belə ailələrdə uşaq üçün sosial inkişaf şəraiti yaratmaq o qədər də çətin olmadı. Burada əsas məsələ uşaqlar-

arası ünsiyyəti düzgün təşkil etmək idi. Bu qruplarla birlikdə keçirilən söhbətlərdə valideynlərin hər birinin ailə problemləri müəyyən edildi, səmərəli rəy mübadiləsi aparıldı.

III qrupa daxil olan 16 üçuşaqlı, 27 ikiuşaqlı və 23 biruşaqlı valideynlərlə ayrılıqda görüşlər keçirildi. Onlarla aparılan işin əsas məqsədi ailələrində mövcud olan probelmləri, çətinlikləri öyrənmək idi. Təbii ki, bu söhbətlərlə kifayətlənməyib, ekspert qrupunun üzvləri ilə məsləhətləşərək belə qərar olundu ki, pedaqoqlar ailələrə gedərək hər bir ailənin pedaqoji problemlərini dəqiqləşdirsinlər. Beləliklə, eksperiment aparılan hər bir sinifdə sinif rəhbəri və ekspert qrupunun üç üzvü ailələrdə oldular. Bu zaman məlum oldu ki, yalnız 17 ailədə uşaqların dərs oxuması üçün xüsusi guşə vardır. III qrupa daxil olan valideynlərlə pedaqoji iş aparmağın çətinliyi də xeyli dərəcədə elə bununla bağlı idi. Onlar öz səhvlərini başa düşmək istəməsələr də, sinif rəhbəri və ekspert qrupunun səyləri, apardıqları fərdi söhbətlər nəticəsiz qalmadı, myəyyən irəliləyiş əldə edildi. Buna bir müddət sonra sinif rəhbərinin valideynlərlə təşkil etdiyi müzakirələr zamanı ailədə uşağın sosial inkişaf yollarına önəm verilməsi, imkan daxilində konkret ailələrdə valideynin səhvlərinin təmkinlə təhlil olunması, hər bir məktəbdə I qrupa daxil olan valideynlərlə III qrupa daxil olan valideynlərin görüşlərinin təşkili də kömək göstərmişdir. Valideynlərin dialoqu zamanı I qrupa daxil olan valideynlər müəyyən situasiyanı izah edir, bundan çıxış yollarının müxtəlif variantlarını göstərir, onların hansının səhv, hansının düz olduğunu digər valideynlərə bildirirdilər. Pedaqoji eksperimentin gedişində bir daha əyani şəkildə gördük ki, işin belə təşkili özünü doğruldur, məqsədəuyğun xarakterini nümayiş etdirir. Valideynlərin bir-birinin təcrübəsini öyrənməsinin böyük pedaqoji səmərəsini nəzərə alaraq, bu istiqamətdə valideynlərin bir-biri ilə daha tez-tez görüşmələrini və təcrübə mübadiləsi aparmalarını təmin etməyə çalışırdıq.

Unutmaq olmaz ki, qrupla iş metodikasında valideynlərin qruplara bölünməsi şərti xarakter daşıyır. Ona görə də belə bölgülərdə müxtəlif variantlara da üstünlük verilə bilər. Məsələn, eksperimentin gedişində qeyd olunan qruplardan başqa, «qonşular», «şagird dostlar» və s. kimi qruplar da yaradaraq, onlarla müəyyən pedaqoji söhbətlər etdik. Aparılan pedaqoji işlərin nəticəsində bir tərəfdən valideynlər bir-birləri ilə, digər tərəfdən öz uşaqlarının dostluq etdikləri şəxslərlə tanış oldular. Belə tanışlığın müəyyən pedaqoji əhəmiyyət kəsb etməsi şübhəsizdir.



Beləliklə, eksperiment qruplarında biz sinif rəhbərlərinin, müəllimlərin valideynlərlə müxtəlif formalarda pedaqoji işini təşkil etdik. Bu zaman çalışdıq ki, onlarla valideynlərin qarşılıqlı əlaqə və münasibətlərini, faydalı, səmimi əməkdaşlığını təmin edək. Bu, valideynlərin pedaqoji fəallığının artmasına, təlim-tərbiyə fəaliyyətində nəzərə çarpacaq dəyişikliklərin yaranmasına kömək edən amillərdəndir. Bunu ondan görmək olar ki, əvvəllər məktəbə ən yaxşı halda valideyn iclaslarına gələn valideynlər artıq uşaqlarının təlim fəaliyyəti ilə daha ciddi maraqlanmağa, onların kimlərlə oturub-durduğunu, ünsiyyətdə olduğunu öyrənməyə başladılar. Nəticədə valideynlərin bir çoxunun arzusuna uyğun olaraq, şagirdlərin müxtəlif dərnəklərə (rəsm, idman, musiqi və s.) yazılmasında müəyyən irəliləyiş özünü göstərdi. Eksperimentin sonunda eksperimentə cəlb olunmuş ailələrdə mövcud münasibətlər sistemində müəyyən qayda yaradılması, valideynlərin, xüsusən anaların uşaqlarla ünsiyyətində zorakılıq, münaqişə və nizamsızlıq təzahürlərinin azalması, məktəb-ailə münasibətlərində mənəvi-psixoloji mühitin yaxşılaşması aydın müşahidə olunurdu ki, bu da valideyn-uşaq münasibətlərinin qarşılıqlı hörmət və əməkdaşlıq üzərində qurulmasında, şagirdin sosial inkişafında mühüm əhəmiyyət kəsb edir.

**«Asudə vaxtın səmərəli təşkili üzrə sosial institutların birgə işinin təşkili»** adlı **üçüncü, sonuncu yarımfəsildə** ilk növbədə asudə vaxtın struktur komponentləri ayırd edilir, onun təşkili sahəsində sosial institutların fəaliyyətinin əsas məqamları araşdırılır. Pedaqoji ədəbiyyatda mənəvi sərvət kimi qiymətləndirən asudə vaxtın Aşağıdakı struktur komponentləri vardır: aktiv yaradıcı fəaliyyət; təhsil və özünütəhsil; fərdi və sosial xarakterli mədəni tələbatların ödənilməsi; fiziki hazırlığın artırılması; hobbi tipli həvəskar məşğələlər; oyunlar; yaşıdlarla, qohumlarla görüş; passiv istirahət: televiziya verilişlərinə baxmaq; telefon ünsiyyəti, məktublaşmalar; kompüter oyunları; müxtəlif xarakterli maraqların ödənilməsi ilə bağlı evdənkənar yerlərdə keçirilən vaxt və s. Asudə vaxt «azad fəaliyyət və inkişaf üçün üfüqlər açır».[1]

İnkişaf, onun sosial, pedaqoji, psixoloji tərəfləri kiçik zaman kəsiklərində qurulan fəaliyyətin məzmunu və nəticələri ilə müəyyən olunur, qiymətləndirilir. Uşağın həyat və fəaliyyəti belə kiçik zaman kəsikləri üzərində qurulur. Müxtəlif yaş dövrlərində, hətta müxtəlif

---

[1] Раченко И.П. НОТ учителя. М.: Просвещение. 1989, с.11.

həyat anlarında asudə vaxtın müddəti, məzmunu, forması dəyişir. Bu, əlbəttə, inkişaf qanunauyğunluqlarının, şagirdin aparıcı fəaliyyətinin dəyişməsi ilə bağlı olur. Aparıcı fəaliyyətin səmərəli tənzimlənməsində də asudə vaxt mühüm amil kimi çıxış edir. Ona görə də tədqiqat zamanı ilk növbədə valideyn və şagirdlərin asudə vaxt anlayışı ilə bağlı fikirlərini öyrənərək kontrol və eksperimental qruplarda şagirdlər və valideynlər arasındakı fərqli məqamları təhlil etdik və müvafiq ümumiləşdirmələr apardıq. Bu halda ailədə uşaqların asudə vaxtının səmərəli təşkili yollarının izahı da valideynlərlə pedaqoji işdə mühüm yer tutdu. Eksperimental qrupun valideynləri ilə aparılan sorğudan məlum oldu ki, valideynlərin əksəriyyəti bu məqama diqqət yetirmirlər. Ona görə də eksperimentin gedişində biz valideynlərin diqqətini ailənin asudə vaxtının təşkili probleminə yönəltdik. Valideynlərlə söhbətlərin birini uşağın asudə vaxtının səmərəli təşkili probleminə həsr edərək asudə vaxtın uşağın sosial inkişafına və təlim maraqlarına xidmət etməli olduğunu və bunun yollarını izah etdik. Çox vacib məsələ olduğu üçün bu problemə həsr edilmiş bir neçə söhbət təşkil etdik. Söhbətlərin məzmununu valideynlərin necə mənimsədiyini müəyyənləşdirmək üçün probelemlə əlaqədar tədricən müzakirələr keçirilirdi.

Eksperimentin gedişində ailələrin asudə vaxtını çox zaman birlikdə keçirdiklərinin şahidi olduq. Burada əsas məqsəd ailənin hər bir üzvünün ünsiyyət tələbatının ödənilməsində ailənin digər üzvlərinin rolunu artırmaq, uşaqların «həyat dostları» ilə nəzarətsiz görüşlərini azaltmaqdan ibarət idi. Məsələnin belə qoyuluşu uşaqların sosial inkişafında ailənin rolunu artırırdı.

Ümumiyyətlə, biz tədqiqat prosesində valideynlərlə aparılan hər bir tədbirdən sonra müzakirə təşkil edib, valideynlərin problemi necə mənimsədiklərinə xüsusi diqqət yetirirdik. Zənnimizcə, valideynlərlə aparılan pedaqoji işdə bu, vacib məqamlardan biridir. Təbii ki, hər bir məsələ bütün valideynlər tərəfindən vahid məzmunda dərk edilə bilməz. Valideynlərlə edilən söhbətdən sonra müzakirənin keçirilməsi hər bir valideynin məsələyə münasibətini, izah edilən məsələnin necə mənimsənməsini aydınlaşdırmağa və onun fikirlərində müəyyən korrektə işləri aparmağa imkan verir.

Tədqiqatda bizi maraqlandıran başqa bir sosial institut ailənin alternativi olan qohum, qonşu, tanış, bir sozlə, digər ailə qruplarıdır. Bu qruplar həmişə uşaqların tərbiyəsində ailələrə, xüsusilə gənc ailələrə yaxından kömək edirlər. Uşaqların sosial inkişafında ailə qruplarının



rolunu müəyyənləşdirmək məqsədilə eksperimentə cəlb olunmuş valideynlərlə apardığımız sorğunun nəticələri vəziyyətə aydınlıq gətirir.

Sorğudan görünür ki, validenlər öz övladlarını daha çox öz yaxınlarına etibar edirlər (93%). Onlar alternativ sosial institutlara da biganə deyillər: bu sahədə ikinci yerdə əlavə təhsil müəssisələri (57 %), üçüncü yerdə ev tərbiyəçiləri və dayələr (34%), dördüncü yerdə müəllimlər (24%) durur.

Sosial institutlarda aparılan işlər valideynlərin maarifləndirilməsi ilə yanaşı uşaqların sosial inkişafı prosesində bilavasitə iştirak etməyə, valideynlərə və uşaqlara yardım göstərməyə yönəlir. Biz bu sahədə yaranmış təcrübəyə əsaslanaraq belə iş formalarından bir qisminin modifikasiya olunmuş variantını (valideynlərlə aparılan pedaqoji işin mövzuları, məzmunu və formaları göstərilməklə) hazırladıq. Tədqiqatımızda onlardan bir qismi tətbiq edilmiş, müəyyən qədər əhəmiyyətli, səmərəli nəticələr əldə olunmuşdur.

Eksperimentin gedişi bir daha aydın şəkildə göstərdi ki, valideynin pedaqoji səviyyəsi ilə valideynin məktəbə, uşağın təhsilinə münasibəti, məktəb və ailənin qarşılıqlı əməkdaşlığı ilə şagirdin idrak fəallığı arasında sıx əlaqə vardır. Bunu aşağıdakı diaqramdan aydın görmək olar:

Diaqram 2.3.

Eksperimental qruplarda şagirdlərin sosial inkişafında baş verən dəyişmələrin korrelyasiyası




Bu diaqramda hər bir eksperimental qrupdakı dəyişmənin kəmiyyət fərqini izləmək mümkündür. 1, 3 və 5-ci sütunlar eksperimental,

2,4 və 6-cı sütunlar isə kontrol sinsifləri ifadə edir. Eksperiment müddətində aparılan pedaqoji işlər şagirdlərin sosial inkişafını kökündən dəyişməsə də, bu sahədə əhəmiyyətli inkişaf baş vermişdir. əminliklə deyə bilərik ki, bu eksperiment zamanı aparılan işlər öz nəticəsini vermiş, qarşıya qoyulan məqsədə nail olunmuşdur.

Dissertasiyanın «Nəticə» hissəsində tədqiqatda nəzərdən keçirilən məsələlər ümumiləşdirilmiş, ailədə uşağın sosial inkişaf şəraitinin optimallaşdırılması baxımından əhəmiyyətli olan müəyyən yekunlar və tövsiyələr öz əksini tapmışdır. Tədqiqatda apardığımız təhlilə əsaslanaraq bir sıra nəticələri irəli sürə bilərik:

1. «Sosial inkişaf şəraiti» anlayışı özündə bir sıra pedaqoji, psixoloji və sosial amilləri birləşdirməklə inkişafda olan insanın tərbiyəsi, təlimi və sağlamlığı üçün yaradılmış normal, əlverişli, inkişafetdirici sosial mühiti nəzərdə tutur. Bu anlayışın struktur komponentlərinə uşağın biogenetik təbiəti; fərdi-psixoloji xüsusiyyətləri; mühitin və ailənin etnomədəniyyəti; uşağın yaşadığı mühitin real vəziyyəti; tərbiyə şəraiti və tərbiyə tərzi daxildir.

2. Sosial şəraitin normal qurulması uşağın inkişafına seçimli tərzdə təsir göstərir. Bu təsir uşağın özünüreallaşdırması prosesində yaranan tələbat, maraq, arzu və meyllərin məzmunundan asılı olaraq dəyişə bilir. Müasir şəraitdə tərbiyə prosesinin başlıça vəzifəsi uşağın davranışının və inkişafının yeni ictimai tələbatlara uyğun şəkildə, məqsədyönlü, düşünülmüş qaydada planlı təşkili yollarının işlənməsidir.

3. Hazırda uşaqlar üçün əlverişli sosial inkişaf şəraitinin yaradılması pedaqogikanın ən aktual problemlərindən birinə çevrilmişdir. Bunu zəruri edən başlıca amil ailə tərbiyəsi və ailə mühiti ilə dəyişən cəmiyyətdə modernləşən təhsil arasında məzmun eyniliyi, inkişafda, tələblərdə vəhdət yaratmaqdır. Bu sahədə aparılan islahatlar təhsil sistemindəki innovasiyaların tələblərinə uyğun olaraq müasir şəraitdə ailələrdə yaranmış sosial, iqtisadi, mənəvi-psixoloji problemlərin həllində valideynlərə kömək etmək məqsədi daşıyır.

4. Hər bir cəmiyyətdə sosial inkişaf şəraitinin yeniləşməsi ilə bağlı valideynlərlə bu sahədə aparılan pedaqoji işin xüsusiyyətləri dəyişir. Bu baxımdan hazırda valideynlərlə özənəməxsus qaydada, etnopedaqoji və etnopsixoloji kontekstdə iş aparmaq tələb olunur. Aparılan bu işin məqsədi yetişməkdə olan nəsildə müasir tələblərə müvafiq şəxsiyyətin formalaşdırılması, özünənəzarət, özünüistiqamətləndirmə, özünüinkişaf, özünütərbiyə və nəhayət, rəqabətəqabillik kimi keyfiyyətlərə yiyələnməsini təmin etməkdir.



5. Sosial inkişaf şəraitinin yaxşılaşdırılması ilə bağlı valideynlərlə aparılan pedaqoji iş təcrübəsi müasir tələblərə əsasən cavab vermir və onun yeniləşməsinə ciddi ehtiyac vardır. Bu sahədə valideynlərlə pedaqoji işdə etnopedaqoji məsələlərlə yanaşı, müasir təhsilin tələbləri də nəzərə alınaraq, onların yeni, inteqrativ formalarından istifadə edilməsi lazım gəlir.

6. Sosial inkişaf şəraitinin yaxşılaşdırılmasında valideynlərin daha çox köməyə ehtiyacı olan sahə uşaqların (şagirdlərin) dərsdənkənar fəaliyyətinin səmərəli təşkili və onlara nəzarətlə bağlıdır. Bu sahədə ənənəvi əlaqələr: ailə qruplarının fəaliyyəti, müəllimlərin tədris prosesi ilə bağlı apardığı pedaqoji iş yetərli deyildir.

7. Hər bir uşağın sosial inkişafında validenlərlə aparılan pedaqoji iş ailənin sosial təcrübəsi, ailə ənənələri, valideynlərin mənəvi idealları, təhsili və peşə fəaliyyətinə müvafiq qurulur və müəyyən təkamülə məruz qalır.

8. Sosial inkişaf şəraiti ilə bağlı valideynlərlə aparılan pedaqoji işdə şagirdlərin asudə vaxtının səmərəli təşkili, təlim tapşırıqlarının səmərəli yerinə yetirilməsinə nəzarət və kömək prioritet istiqamətlərindən biri olaraq qalır.

9. Uşaqların sosial inkişaf şəraitinin yaxşılaşdırılmasında valideynlərin digər sosial institutlarla ənənəvi əlaqələri onları qane etmir, bu sahədə elmi baxımdan tənzimlənən daha mükəmməl pedaqoji təhsil müəssisələrinə ehtiyac yaranmışdır. Belə müəssisələrdə aparılan işin əsas prinsipi 5-17 yaşlı uşaq, yeniyetmə və gənclər üçün fəaliyyət növü seçmək azadlığı, sosial-pedaqoji, mədəni, idman-sağlamlaşdırıcı, bədii-estetik tədbirlərdə iştiraka cəlb etmək, onların həyatının mənalı qurulması üçün lazım olan sosial-pedaqoji şəraitin qərarlaşmasına kömək etməkdir.

Tədqiqatın əsas məzmunu müəllifin dərc etdirdiyi aşağıdakı əsərlərdə öz əksini tapmışdır:

1.Ailə tərbiyəsinin bəzi sosial-pedaqoji problemləri// Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun «Elmi əsərlər» toplusu. Bakı: 2008, s.102-104.

2.Pedaqoji mühitin təsiredici imkanları// «Azərbaycan məktəbi» jurnalı. Bakı: 2008, №5, s. 55-61.

3.Ailədə uşağın sosial inkişaf şəraiti – ətraf mühitin sosial komponentidir//Akademik Həsən Əliyevin 100 illik yubileyinə həsr olunmuş «Ekologiya: təbiət və cəmiyyət problemləri» Beynəlxalq elmi konfrans (8-9 noyabr 2007-ci il). Bakı: 2007, s.595 (həmmüəlliflə).

4.Valideynlərlə aparılan pedaqoji işdə məktəb psixoloqunun rolu// «Azərbaycan məktəbi» jurnalı. Bakı: 2009, №2, s.83-88.

5.Asudə vaxt sosial inkişaf şəraiti kimi// «Azərbaycan məktəbi» jurnalı. Bakı: 2009, №5, s. 88-92.

6. Uşaqların sosial inkişaf şəraiti və valideynlərlə pedaqoji işin bəzi aspektlərinin təhlili// «Azərbaycan məktəbi» jurnalı. Bakı: 2010, №4, s.53-58.

7.Некоторые социально-педагогические проблемы целесообразной организации свободного времени// XXI век: итоги прошлого и проблемы настоящего. Межвузовский сборник научных трудов. Пенза: 2010, выпуск 13, с.201-205.

8.Категории социального развития и социализации личности как предмет научного анализа в гендерной практике/ Теория и практика гендерных исследований в мировой науке. Материалы международной научно-практической конференции (5-6 мая 2010 года). Пенза-Прага: 2010, с.61-64.

9. Sosial şərait və şəxsiyyətin sosiallaşması/ Sosial elmlər və psixologiya fakültəsinin əməkdaşlarının elmi məqalələr toplusu. Bakı: 2011, s.133-142.

10. Sosial inkişafın mahiyyəti və mexanizmi / Pedaqogika elminin inkişafında yeni mərhələ. Beynəlxalq elmi-praktik konfransın materialları (28-29 iyun 2011-ci il). Bakı: 2011, s.549-551.

11. Sosial şərait və şəxsiyyətin sosiallaşması// «Azərbaycan məktəbi» jurnalı. Bakı: 2011, №6, s.44-51.

12. Роль социальных условий в социализации личности (итоги исследования)// Вектор науки Тольяттинского Государственного Университета. Толятти: Серия «Педагогика и психология». Тольятти: 2012, №1 (8), с.238-240.

13. Sosyal koşullar və bireylerin sosyalleşmesi //Sosyal ve beşeri bilimler dergisi. 2012, cilt 4, №2, (Online) 323.

14. Sosiallaşma prosesi və tərbiyə işi // «Azərbaycan məktəbi» jurnalı. Bakı: 2013, №2, s.64-68.

15. Ailə və məktəb sosiallaşma prosesində əsas faktor kimi/ Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş «Təhsil və cəmiyyət» mövzusunda 5-ci Respublika elmi-praktik konfransı (7 may 2013-cü il). Bakı: 2013, s.160-181.



**Малахат Рафик кызы Нуриева**

**Условия социального развития ребенка в семье и особенности педагогической работы с родителями**

**Резюме**

В диссертационной работе рассматривается исключительно актуальная проблема – условия социального развития ребенка в семье и особенности педагогической работы с родителями. Эта проблема непосредственно связана с реальностями конкретной страны, со специфической семейной и учебной средой, а также с изменениями, происходящими в мире.

Работа состоит из введения, двух глав (семи подглав), заключения и списка использованной литературы.

В первой главе «Теоретико-методологические вопросы проблемы» в первую очередь рассматриваются условия социального развития как педагогическая проблема; эти условия исследуются в рамках семьи, в которой проживает человек, социально-экономических, политических, культурных, нравственно-психологических возможностей общества, оценивается социальное развитие индивида как усвоение им норм социальной среды, его саморазвитие, воспитание и самовоспитание. В главе рассматриваются социально-педагогические проблемы семейного воспитания, а также этнопедагогические аспекты работы, проводимой с родителями и в этом контексте подчеркивается значение изучения опыта педагогической среды семьи.

Во второй главе «Основные направления педагогической работы, проводимой с родителями с точки зрения улучшения условия социального развития в семье» анализируются особенности педагогической работы школьных психологов с родителями, особое внимание уделяется рассмотрению роли совместной работы психологов и родителей в социальном эксперименте, проведенного в г. Баку и Товузском районе, была сделана попытка определить эффективность новых форм педагогической работы школы с родителями, создание на этой основе нормальных условий для социального развития детей. В экспериментальных группах в центре внимания были проблемы организации различных форм педагогической работы между учителями и родителями, обеспечение их взимодействия. На основе конкретных результатов эксперимента были исследованы пути организации (в условиях сотрудничества социальных институтов) свободного времени детей в целях их социального развития и учебных интересов.

В заключении диссертации были обобщены рассмотренные проблемы, даны рекомендации по оптимизации условий социального развития ребенка в семье.

**Malahat Rafig qizi Nuriyeva**
**The social development condition of a child in a familiy and the features of pedagogical work with parents**
**Summary**

The presented thesis is devoted to the social development condition of a child in a family and the features of pedagogical work with parents, which is very actual problem in contemporary condition. This problem is closely connected with the reality of concrete state, education atmosphere and the changes happening in the world.

The work consists of introduction, two chapters (seven semihapters), conclusion and list of biblioqraphy.

The first chapter called "Theorotical and methodological matters of a problem" first of all is investigated as social development condition as pedagogical problem and this condition is investigated in the frame of psychological chances like social and economical, political, cultural and spiritual and psychological chances. Later in the presented article social and pedagogical problems of family behavour, ethnopedagogical aspects of the work carried out with parents are looked through and on this context the creation conditions of suitable social development in a family are explained and the importance of learning of pedagogical atmosphere in a family is noted as well.

In the second chapter called "The main direction of pedagogical work carried out with patrents for impoving social development condition in a family" firstly the features of pedagogical work of school psychologists with parents are analysed and special attention is paid for the role of mutual work of parents and psychologists as well. Besides it on the base of pedagogical experiment, carried out at schools of Baku city and Tovuz region it is noted that for the creation of normal social development condition for a child it is necessary to create new forms of ties of school with parents. It must be taken into account that organization of pedagogical work of teachers with parents in different forms is very important. On the base of concrete experimental results it must be noted that a child's spare time must serve for the social development and training interests of a child.

In the "Conclusion" part of the thesis all the problems are generalized and some advise for optimalization of child's social development condition are put forward as well.



**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТ ВЕННЫЙ**
**ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**Малахат Рафик кызы Нуриева**

# УСЛОВИЯ СОЦИАЛЬНОГО РАЗВИТИИ РЕБЕНКА В СЕМЬЕ И ОСОБЕННОСТИ ПЕДАГОГИЧЕСКОЙ РАБОТЫ С РОДИТЕЛЯМИ

5804.01-Общая педагогика, история педагогики и образования

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени доктора философии по педагогике

**БАКУ-2013**